**«KAFKAS UNİVERSİTETİ»**
**QARS, TÜRKİYƏ RESPUBLİKASI**
**VƏ**
**«MİNGƏÇEVİR DÖVLƏT UNİVERSİTETİ »**
**MİNGƏÇEVİR, AZƏRBAYCAN RESPUBLİKASI**
**ARASINDA ƏMƏKDAŞLIQ**
**ANLAŞMASI**

BÖLÜM I

ANLAŞMANIN TƏRƏFLƏRİ VƏ MƏQSƏDLƏRİ

1. Anlaşma mətni içində keçən Kafkas Universiteti Türkiyəni, Mingəçevir Dövlət Universiteti Azərbaycanı təmsil edirlər. Bu üniversitetler bundan sonra "**Tərəflər**" olaraq adlandırılacaklaır.
2. Bu anlaşmanın məqsədi təhsil, elm, mədəniyyət və sənət sahələri ilə bütün təlim-tərbiyə sahələrində ortaq layihələr həata keçirmək, ortaq elmi tədqiqatlar aparmaq və nəşr etmək, hər səviyyədə tələbə və professor-müəllim heyyəti mübadilə etmək, ortaq elmi və texnik səyahətlər, idman fəaliyyətləri və elmi toplantılar təşkil etmək, her iki üniversiteti uyğun şəkildə tanıdıcı fəaliyyətlər göstərməkdir.

BÖLÜM II

TƏHSİL, ELMİ TƏDQİQATLAR VƏ NƏŞRLƏR

Tərəflər aşağıda verilən maddələr üzərində ortaq fəaliyyətlər göstərmək üzrə anlaşmışlar.

3. Tərəflər hər iki universitet nəzdində olan fakültə, institut, və kolleclərdə aparılan təhsil və təlimin inkişaf etdirilməsi və beynəlxalq standartlara uyumlu hala gətirilməsi xüsusunda ortaq çalışacaqlar.
4. Tərəflər bütün tədris sahələrində ortaq mövzular üzərində elmi tədqiqatlar, layihələr həyata keçirər və elmi əsərlər nəşr edərlər.

BÖLÜM III

PROFESSOR-MÜƏLLİM HEYƏTİ VE TƏLƏBƏ MÜBADİLƏSİ

5. Tərəflər birlikdə tədqiq ediləcək elm sahələrini qabaqcadan bildirmək şərti ilə, professor-müəllim heyyəti mübadiləsi edə bilərlər. Tədris ve elmi-tədqiqat məqsədi ilə edilən bu mübadilələr hər iki ölkənin hüquq sisteminə görə həyata keçirəcəkdir.
6. Tərəflər, qəbul edəcəkləri kontingentləri ve şəraiti qabaqcadan bildirmək şərti ilə, staj keçmək üçün qarşılıqlı tələbə mübadiləsi edə bilərlər. Tələbələrin sayı və yerləşmə şərtləri qəbul edən universitet tərəfindən müəyyən edilir.

BÖLÜM IV

ELMİ TOPLANTILAR VƏ TANITMA FƏALİYYƏTLƏRİ

7. Tərəflər, konqres, konfrans, simpozium, workshop kimi ortaq elmi tədbirlər və idman yarışları təşkil etməyi və qarşılıqlı bir-birlərini dəvət etməyə razıdırlar.
8. Tərəflər, bu cür tədbirlərin təşkili üçün məsuliyyətin təşkilatçı tərəfinin daşıdığını qəbul edirlər.
9. Tərəflər, bütün birgə tədbirlərdə, hər iki universitetin tanıtma fəaliyyətlərinin həyata keçirilməsinə razıdırlar.

BÖLÜM V

MEYDANA ÇIXACAQ PROBLEMLƏRİN HƏLLİ

10. Tərəflər, meydana çıxacaq poblemləri xoş məram və qarşılıqlı müzakirələr yolu ilə həll etməyə razıdırlar.

BÖLÜM VI

ANLAŞMANIN MÜDDƏTİ VƏ QÜVVƏDƏ OLMASI

11. İmzalanan bu anlaşma beş (5) il müddətində qüvvədədir. Bu müddətin sonunda Tərəflərdən bir etiraz olmasığı təqdirdə və bir dəfəyə məxsus olmaqla anlaşma beş (5) il müddətinə uzadılır. Anlaşma ikinci beş (5) ildən sonra avtomatik olaraq başa çatır.
12. Tərəflər anlaşmanı birtərəfli qaydada ləğv etmək hüququna sahib olduqları barədə razılığa gəlirlər, bir şərtlə ki, altı ay əvvəl bir-birlərini yazılı şəkildə xəbərdar etsinlər.
13. Hazırlanmış anlama və ehtimal olunan əlavə protokollar hər iki ölkənin səlahiyyətli orqanları tərəfindən təsdiqləndikdən sonra qüvvəyə minir.

| | |
|---|---|
| **«Kafkas Universiteti»** | **«Mingəçevir Dövlət Universiteti»** |
| **(Qars, Türkiyə Respublikası)** | **(Mingəçevir, Azərbaycan Respublikası)** |
| **Adına** | **Adına** |
| **Rektor, Prof. Dr. Hüsnü KAPU** | **Rektor, Prof. Dr. Şahin BAYRAMOV** |
| Tarih ___/___/2020 | Tarih 18/02/2020 |

**Ünvan**: Kafkas Üniversitesi Merkez Kampüsü 36040 Kars, Türkiye
**Tel.** : +90 (474) 225 11 59
**Faks** : +90 (474) 225 11 60
**e-poçt** : rektor@kafkas.edu.tr

**Ünvan:** D.Əliyeva küçəsi, 21 Mingəçevir AZ4500 Azərbaycan
**Tel.** : (+99424) 275-32-72
**Faks** : (+99424) 275-32-72
**e-poçt** : info@mdu.edu.az